# İLAHİYYAT

UOT 2-5

## "ƏMR BİL-MƏRUF VƏ NƏHY ANİL-MÜNKƏR" FƏRİZƏLƏRİ CƏMİYYƏTDƏ ÜMUMİ NƏZARƏT FORMASI KİMİ

**Ə.İ.ABİDZADƏ**
***İstiqlaliyyət küçəsi 8, Əlyazmalar İnstitutu***
***aysel sherifli@yahoo.com***

*"Əmr bil-məruf və nəhy anil-münkər" (yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək) fərizələri müsəlman cəmiyyətində ümumi nəzarət prinsipinin əsası olaraq, islam qanunlarının icrasına ən möhkəm və qüdrətli bir dayaqdır. Allah-Təala islamın həyat verən qanunlarına düzgün riayət olunmasına nəzarət etmə vəzifəsini bütün cəmiyyət üzvlərinin öhdəsinə qoymuşdur. Buna əsaslanaraq hər bir müsəlman "əmr bil-məruf və nəhy anil-münkər" fərizələrini yerinə yetirməklə islam hökmlərinin düz icrasına yardım edərək, gerçəkdən həm bir icraedici qüvvə, həm də ciddi nəzarətçi sayılır. Nəticədə hər bir şəxs və ya bir dəstə adam müsəlman xalqının ayıq gözlərini öz üzərində bir nəzarətçi sayıb, özünü islam qanunlarına düz riayət etməyə borclu biləcək.*

*Bu məqalədə "Əmr bil-məruf və nəhy anil-münkər" cəmiyyətdə ümumi nəzarət forması kimi mənbələr əsasında ətraflı şərh edilir.*

**Açar sözlər:** əmr, nəhy, cəmiyyət, çəkindirmək, pis, fərizə, yaxşılıq

"Əmr bil-məruf və nəhy anil-münkər" (yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək) fərizələri müsəlman cəmiyyətində ümumi nəzarət prinsipinin əsası olaraq, islam qanunlarının icrasına ən möhkəm və qüdrətli bir dayaqdır. Allah-Təala islamın həyat verən qanunlarına düzgün riayət olunmasına nəzarət etmə vəzifəsini bütün cəmiyyət üzvlərinin öhdəsinə qoymuşdur. Buna əsaslanaraq hər bir müsəlman "əmr bil-məruf və nəhy anil-münkər" fərizələrini yerinə yetirməklə islam hökmlərinin düz icrasına yardım edərək, gerçəkdən həm bir icraedici qüvvə, həm də ciddi nəzarətçi sayılır. Nəticədə hər bir şəxs və ya bir dəstə adam müsəlman xalqının ayıq gözlərini öz üzərində bir nəzarətçi sayıb, özünü islam qanunlarına düz riayət etməyə borclu biləcək. "Allah Ona (Öz dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir" (1, əl-Həcc, 40).

Bu nəzarət prinsipinin həyata keçirilməsi heç də asan bir məsələ deyildir, çünki insanlar xarakterinə görə biri-birindən fərqlənirlər. Buna baxmayaraq

əmr bil-məruf və nəhy anil-münkər prinsipinə əməl edilməsi müsəlman üçün vacib sayılır. Odur ki, həddi-buluğa çatmış və ağıllı olan hər bir müsəlman yaxşı işlər görməyi əmr etməli, pis işlərdən çəkindirməlidir. Bu prinsipə əməl edib-etməməsinə görə özünü müsəlman hesab edən şəxs məsuliyyət daşıyır. Çünki bu prinsipə əməl edilmədiyi halda peyğəmbərlik öz risaləsini yerinə yetirə bilməz, cəmiyyətdə zülm, ədalətsizlik və hərcmərclik hökm sürər. Yuxarıda qeyd edildiyi kimi Allah-Təala peyğəmbərləri yaxşılıq əmr etmək və pislikdən çəkindirmək missiyası ilə insanlara göndərmişdir. Bəşəriyyətin əmin-amanlıq şəraitində yaşaması, azadlığın, ədalətin bərqərar olunması üçün yaxşılıq əmr etmək və pislikdən çəkindirmək fərizələri insanlığa təlqin edilməli və hər kəs onun mahiyyətini dərk etməlidir. Allah-Təala bəşəriyyətə göndərdiyi Quranda buyurur ki, müsəlmanlar biri-birini və bütün insanları yaxşı işlər görməyə çağırsınlar və pis işlərdən çəkindirsinlər: "(Ey müsəlmanlar!) Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və Allaha iman bəsləyirsiniz" (1, Ali-İmran, 110).

Cəmiyyətin hər bir üzvü yaxşı əməllər əmr edib, pis əməllərin aradan qaldırılmasına çəkinmədən və qorxmadan çalışarsa bu zaman cəmiyyətdə əmin-amanlıq, ədalət hökm sürər. Peyğəmbər demişdir: "Heç biriniz özünü təhqir etməsin". Soruşdular ki: "Ya Rəsulullah! Bizlərdən biri özünü necə təhqir edə bilər?" Peyğəmbər buyurdu: "Görər ki, haradasa bir söz deməlidir, amma deməz. İzzət və Cəlal Sahibi Allah Qiyamət günü ondan soruşar ki: "Sənə filan şey barədə filan sözü deməyə nə mane oldu?" O da cavab verdi ki: "İnsanlardan qorxdum!". Allah-Təala deyər "Daha layiqli olardı ki, Məndən qorxasan" (2, I, 149).

Allahın Rəsulu hədislərinin birində dinin nəsihət olması haqqında belə demişdir: "Din nəsihətdir!". Ondan soruşdular ki: "Ya Rəsulullah! Kimin üçün?" O cavab vermişdir ki: "İzzət və Cəlal Sahibi Allah üçün, Onun kitabı üçün, Onun Rəsulu üçün, müsəlmanların başçıları və adi adamlar üçün" (3, I, 137).

İstər raşidi xəlifələri, istərsə də onlardan sonrakı bir sıra xəlifələr cəmiyyətdə nəzarəti rəiyyətin yolu ilə tətbiq etmişdir. "Mən sizin işlərə başçı oldum, halbuki sizin ən yaxşınız deyiləm... Əgər (işimin öhdəsindən) yaxşı gələ bilsəm, mənə kömək edin, əyintiyə yol versəm, məni düzəldin" (4, IV, 267-277), deyən Əbu Bəkr xəlifə olduqdan sonra cəmiyyət üzərində nəzarətin həyata keçirilməsində xalqa arxalanmış və onların köməyinə ehtiyac duyduğunu söyləmişdir (5, 94; 6, 123).

Hər bir müsəlman cəmiyyətdə təkcə özü ilə məşğul olaraq, xeyir işlər görən, pis əməllərdən çəkinən və özünün problemləri ilə məşğul olan, başqalarının həyat tərzinə və əməllərinə biganə olan bir fərd deyildir. O, həm də onunla birlikdə cəmiyyətdə yaşayan insanların hidayət yoluna gəlməsinə, şər işlərdən uzaqlaşdırılmasına çalışmışdır. "İnsan cəmiyyətdə əmin-amanlıqda olması üçün Allah qəzəb, kin, nifrət, intiqam, şayələr, böhtan kimi pis əməllərdən uzaq olmağı əmr etmişdir. Cəmiyyətin və şəxsiyyətin əmin-amanlı-

ğı naminə O, hamının biri-birinə xeyirxahlıq etməsini, biri-birini düzgünlüyə və həqiqətə çağırmağı, pis əməllərdən çəkinməyi əmr etmişdir” (7, 156).

İslam alimləri “yaxşılıq əmr etmək və pislikdən çəkindirmək” prinsipini ümmətin haqq və xeyir gözətçilərindən olduğunu söyləmişlər (8, II, 682). İslamda ümmətin nəzarət haqqı Quranın “Ali-İmran” surəsinin 104 və 110, 113-115-ci ayələrində öz əksini tapmışdır. Bu ayələr hər hansı bir qövmə və yaxud tayfaya deyil, bütövlükdə ümmətə müraciətlə nazil edlmişdir. İslamı qəbul edən insan onun hökmlərinin icrasına mükəlləf qılınır və elə bir mükəlləf şəxs ola bilməz ki, ona yaxşılıq əmr etmək və pislikdən çəkindirmək vacib olmasın (8, VIII, 145).

İmam əl-Fəxr ər-Razi bununla əlaqədar təfsirində qeyd edir ki, tam kamil insan o kəslərdir ki, naqis adamları kamilləşdirməyə, pis əməllərdən çəkindirməyə, hidayət yoluna yönəltməyə çalışsın. “Bil ki, kamilliyin son qayəsi odur ki, tamam və tamamın fövqündə olsun: insanın tamam olması ancaq onun əməli və nəzəri qüvvəsinin kamilliyindədir; onun tamamın fövqündə olması isə o deməkdir ki, o, naqis olanları kamilləşdirməyə səy etsin, bu isə iki yolla edilir, ya onları gərəkli olan şeylərə doğru yönəltmək yolu ilə edilir ki, bu, yaxşılıq əmr etmək deməkdir, ya da onlara gərəkli olmayan şeyləri qadağan etmək yolu ilə edilir ki, bu da pis işlərdən çəkindirmək deməkdir. Bil ki, yaxşılıq (əl-məruf) və pislik (əl-münkər) ifadəsi mütləq məna daşıyır və onu dəlil olmadan bir şəxsə xas etmək caiz deyildir, bu ifadə hər cür yaxşılığı və hər cür pisliyi nəzərdə tutur” (8, VIII, 166).

Yaxşılıq əmr etmək və pislikdən çəkindirmək prinsipi idarəçilik işlərinə ümumxalq nəzarəti səviyyəsinə yüksəldilir. Quran yaxşılıq əmr etmək və pislikdən çəkindirmək prinsipini rəhbər tutan ümməti başqa ümmətlərlə müqayisədə üstün tutur, fəzilət və kəramət zirvəsinə qaldırır, bu prinsip əsasında Quran müsəlmanların biri-birinin və idarəçilik işlərinə nəzarətini dini vacibət səviyyəsinə qaldırır. Bu da bütövlükdə ümmətin nəzarət haqqı kimi izah edilir. Ona görə də, hər bir müsəlman bu vacibəti yerinə yetirməyə mükəlləf olunmuşdur.

Abdullah bin Məsuda istinadən Peyğəmbərdən (s) belə bir hədis rəvayət olunmuşdur: “Məndən qabaq Allahın hansısa bir ümmətə bəsət etdiyi elə bir peyğəmbər olmamışdır ki, onun yolunu tutan və əmrinə iqtida edən həvariləri və səhabələri olmamış olsun. Amma sonra elə olmuşdur ki, onların ardınca etmədikləri şeyləri deyən, əmr almadıqları şeyləri edən xələflər gəlmişlər. Kim onlara qarşı əli ilə cihad etsə - mömindir, kim onlara qarşı dili ilə cihad etsə - mömindir, kim də onlara qarşı qəlbi ilə cihad etsə - mömindir ki, bunun arxasında imamdan bir xardal dənəsi də yoxdur” (9, 50 saylı hədis).

Hər hansı bir qövm və ya tayfa öz içərilərində nəfslərinin qurbanına çevrilərək, pis əməllərlə məşğul olanları, imkanları olduğu halda onları bu yoldan çəkindirməyən insanları da onlarla birlikdə Allahın cəzalandıra bilər. Bununla əlaqədar Peyğəmbərdən (s) belə bir rəvayət olunur: “Bir qövmin ki, içərisində asilik edən oldu və onlar onu dəyişdirməyə qadir olduqları halda dəyişdirmədi-

lər, Allah az qala onların hamısını cəzalandırar". Başqa bir hədisdə isə belə deyilir: "Əgər insanlar zülm edən adamı görüb onun əlindən tutub saxlamasalar, Allah az qala onların hamısını cəzalandırar" (2, 4005 saylı hədis).

Yaxşılıq əmr etmək və pislikdən çəkindirmək prinsipi insanların biri-biri üzərində, eləcə də dövlət və idarə başçıları üzərində nəzarət imkanları verir və onu dini vacibətlər səviyəsinə yüksəldir. "İbn əl-Qəyyim belə hesab edir ki, islam rəhbərliyində məqsəd yaxşılıq əmr etmək və pislikdən çəkindirməkdir. Lakin elə rəhbərlər (idarə başçıları) var ki, etibarlı şahid (əş-şahid əl-mütəmən) məqamındadırlar və onlardan düzgünlük (əs-sidq) tələb olunur" (10, 207).

İslam bütün müsəlmanlara öz rəhbərlərinin və dövlət strukturlarının fəaliyyətinə nəzarət hüququ vermişdir ki, onlar yaşadıqları cəmiyyətdə yüksək əxlaqi və mənəvi keyfiyyətlərə nail ola bilsinlər. "Dövlət və din cəmiyyətin əsasını təşkil edən iki mühüm elementdir. Birinci qanunun aliliyini, ikinci isə - qanunun məğzini: əxlaqı və mənəviyyatı nəzərdə tutur. Hakimiyyət, mənəviyyat və əxlaq – həqiqətən bu anlayışlar cəmiyyətin həyatında biri-birini tamamlayır. Başqa sözlərlə, əxlaqi və mənəvi dəyərlərin nəticəsi olan hakimiyyət və qanunlar birlikdə cəmiyyətdə birinci dərəcəli rol oynayır" (11, 18-19).

İdeal toplumun yaşamasına təminat verən onu idarə edən "qanun"dur, başqa sözlə desək, düzgün qanun həmin cəmiyyətin binasının təməl daşıdır. Allah-təala hamıya aid olan və hər kəsin xoşbəxtliyini təmin edən bir qanun verib. O buyurur:

«من عمل صالحا من ذكرا و انثى و هو مؤمن فلنحيينّه حياة طيبة»

(النهل،1,197)

("Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcəyik").

Bütün siyasi rejimlərdə və hökumətlərdə qanunun düzgün icra olunmasına nəzarət etməyə, ona tabe olmayanları cəzalandırmaq üçün xüsusi səlahiyyətli orqanlar fəaliyyət göstərib. Amma islam siyası nizamında bu işin icraçıları təkcə seçilmiş məmurlar deyildir. Burada bəlkə də hamı bir-birinə görə məsuliyyət daşıyır.

«كلّكم راع و كلّكم مسئول عن رعيّته» (12, 480)

("Sizin hamınız çobansınız (otaransınız, himayə edənsiniz) və hamınız otardıqlarınıza görə (himayə etdiklərinizə görə) məsuliyyət daşıyırsınız").

Təəssüflə qeyd etməliyik ki, müasir cəmiyyətdə bu önəmli iş unudulmuşdur və onun icrası ilə o qədər də maraqlanan yoxdur. Digər tərəfdən, belə bir vacib işin yaddan çıxması bu barədə aparılan elmi fikir-mübadilələrinin sönük keçməsinə, onun haqqında yazılan məqalələrə və kitablara, eləcə də ona həsr olunmuş elmi tədbirlərə marağın azalmasına gətirib çıxarmışdır. İndi onun yerini "dalğalar təbliğatı" alıb və səsli-şəkilli mənfi təbliğat müsbət təbliğata üstün gələrək bugünkü dünyamızda insanlıq keyfiyyətlərinin get-gedə məhv olmasına sürükləməkdədir.

Əmr bil-məruf ilə nəhy anil-münkər fərizələrinin min il bundan öncə önəmliliyi müsəlmanları islam hökuməti və toplumlarında bu işin rəhbərlik və

icrasını öhdəsinə götürəcək özəl bir orqan və ya təşkilat qurmağa məcbur etdi. Həmin təşkilat islam tarixində “həsəbə, yaxud ehtisab dairəsi” (hesaba alma, ölçü götürmə, dəyərləndirmə idarəsi) adı ilə məşhurlaşdı və yüz illər boyu bu adla fəaliyyət göstərdi. Bu adın və hətta bu təşkilatın nə zaman meydana çıxması dəqiq bilinməsə də, tarixi mənbələr onun yaradılma tarixinin, hicri qəməri ilə üçüncü yüzilliyin sonları və yaxud dördüncü yüzilliyin başlanğıcına, yəni miladi tarixi ilə onuncu əsrə böyük ehtimalla aid etməyə əsas verir.

Hər halda həsəbə islam tarixində önəmli bir iş kimi yaranıb, xalqın istəyi əsasında islam qanunları və hökmlərinin icrasında istifadə olunub və təsirli nəticələrlə də yadda qalmışdır. Hətta həsəbə və möhtəsiblərin vəzifələri haqqında faydalı kitablar da yazılmışdır. Şahidlərin dedikləri və yazdıqlarına görə, millət möhtəsiblərlə əməkdaşlıq etmiş, buna görə də islam tarixi boyu bu iş özünü doğrultmuş və özəl bir əhəmiyyətə malik olmuşdur.

İslam dini əmr bil-məruf ilə nəhy anil-münkər fərizəsini irəli sürməklə ümumi nəzarət sistemini yaratmışdır. Bu İlahi vacibatın icrasi əsasında hər kəsə başqaların müsbət ya mənfi hərəkətlərini mülahizə edərək lazım olan yerdə onlara reaksiya göstərməyi tapşırılır.

Onu da qeyd etməliyik ki, əmr bil-məruf və nəhy anil-münkər təkcə islam ilə müsəlmanlara məxsus deyil və hələ islamdan qabaqkı dinlərdə də mövcud idi.

**ƏDƏBİYYAT**


1. Quran (Z.M.Bünyadov və V.M.Məmmədəliyevin tərcüməsi). Bakı: Qismət, 2006, XLIV+480+LXVs.
2. ابن ماجه ابو عبد الله محمد بن يزيد القزوينى. سنن ابن ماجه. ٩ مجلدات، "دار احياء التراث العربى "بيروت"، ١٩٧٥.
3. العسقلانى احمد بن على بن حجر. فتح البارى بشرح صحيح البخارى. بيروت، "دار المعرفة"، بدون تاريخ.
4. الكند هلوى محمد يوسف. حياة الصحابة. القاهرة، ٤ مجلدات، "دار الريان للتراث"، ١٩٨٧.
5. ابن الجوزى الحافظ جمال الدين ابو الفراج عبد الرجمان. مناقب أمير المؤمنين عمر ابن الخطاب. بيروت، "دار الكتب العلمية"، بدون تاريخ، ص.١٠٣.
6. Məhəmməd Əbd əl-Həkim Züeyr. İslamda nəzarət formaları və nəzarət aparatı. – “İslam araşdırmaları”, VIII buraxılış. Bak: İrşad, 1997, s.115-139.
7. Алиев Рафик. Основы религии. Баку: Qismət, 2003, 230ст.
8. الفخر الرازى. التفسير الكبير المعروف بمفاتيح الغيب. ٣٢ مجلد. بيروت، "دار الكتب العلمية"، ١٩٩٠.
9. ابو الحسين مسلم بن الحجاج القريشى. صحيح مسلم ج٥ مجلدات، "دار ابو حيان"، ١٩٩٥.
10. İsa Məhəmməd Saleh ər-Reys. İslam idarəetməsi və şəriətdə ona nəzarət üsulları. Bakı: İrşad, 1998, 261s.
11. Алиев Рафик. Государство и религия. Баку: İrşad, 2005, 137 ст.
12. على بن ابى طالب. نهج البلاغة (مترجم محمد دشتى). قم، انتشارات، ١٣٧٩، ص.٨٢٠.

## ПРЕДПИСАНИЯ «АМР БИЛ-МАРУФ ВА НАХЙ АНИЛ-МУНКАР» КАК ФОРМА ОБЩЕСТВЕННОГО КОНТРОЛЯ

**А.И.АБИДЗАДЕ**

**РЕЗЮМЕ**

«Амр бил-маруф ва нахй анил-мункар» (призыв к благим деяниям и удержание от плохих), являющийся основой принципа контроля в мусульманском обществе – самая сильная поддержка исполнению законов ислама. Аллах вменил в обязанность всех членов общества контроль над точным исполнением животворных законов ислама. В соответствии с этим, каждый мусульманин, исполняющий предписания «амр бил-маруф ва нахй анил-мункар» и содействующий исполнению велений ислама, считается и исполнительной силой, и строгим контролёром. В итоге, каждый человек или группа людей, ощущая на себе бдительный взгляд мусульманского народа, будут считать своим долгом точное исполнение велений ислама.

В данной статье «Амр бил-маруф ва нахй анил-мункар» как форма общественного контроля обстоятельно комментируется на основе источников.

**Ключевые слова:** амр, нахй, общество, удержание, плохой, предписание, добро

## "AMR BIL-MARUF VA NAHY ANIL-MUNKAR" REGULATIONS AS THE FORM OF SOCIAL CONTROL

**A.I.ABIDZADE**

**SUMMARY**

"Amr bil-maruf va nahy anil-munkar" (appeal to do good deeds and restraint from bad ones) being the base of control principle in Muslim society is the strongest support in the execution of laws of Islam. Allah obliged all members of society to control precise execution of life-giving laws of Islam. In accordance with this, every Muslim executing "amr bil-maruf va nahy anil-munkar" regulations and assisting in execution of laws of Islam is considered both an executive power and a strict controller. As a result, each person or group of people, feeling vigilant glance of Muslim people will be obliged to execute laws of Islam precisely.

"Amr bil-maruf va nahy anil-munkar" as the form of social control is thoroughly commented on the base of sources in the given article.

**Key words:** amr, nahy, society, restraint, evil, regulation, goodness